*Məmmədov Aydın.Azərbaycan folklorunda ana ilə bağlı nümunələrdə tarixi-demoqrafiya məsələləri // Elmi əsərlər,2020,1(10), yanvar-iyun,s.36-41.*

UOT 398(479.24) +314.148

**Məmmədov Aydın,**
*tarix üzrə fəlsəfə doktoru, dosent,*
*BDU-nun Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrası,*
*Bakı ş., akademik Zahid Xəlilov küç., 23.*
e-mail: aydin.mmmdov.67@ mail.ru

# AZƏRBAYCAN FOLKLORUNDA ANA İLƏ BAĞLI NÜMUNƏLƏRDƏ TARİXİ-DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

**Açar sözlər:** *ana, folklor nümunələri, tarixi demoqrafiya məsələləri, əhali artımı, əhali məskunlaşması.*

Anaya ehtiram tarix boyu bütün xalqlara xas olan ən böyük mənəvi dəyərlərdən biridir. Bəşər tarixinin ən qədim çağlarında – orta daş dövründə meydana gələn qəbilə icmasında artıq ana, nəsli qəbilə icmasının başçısı, uşaqların hamisi, ocağın qoruyucusu sayılırdı. Dünyaya övlad gətirən, onu böyüdüb başa çatdıran ana elə müqəddəslik zirvəsinə də, tarixin məhz həmin çağlarından yüksəlmişdir.

İnsan nəslinin artımı doğum və ölüm kimi mühüm demoqrafik proseslər ananı, analıq missiyasını hər zaman ictimai hadisələrin önünə keçirir, bu müqəddəs, əlçatmaz varlığa daima ehtiram göstərilməsini gündəmə gətirir.

Azərbaycan xalqının qan yaddaşında, həyat anlamında, ailə fəlsəfəsində anaya yüksək etiqad, sevgi və sayğı milli-mənəvi dəyərlər sistemində özünə möhkəm yer tutmuşdur. Bu mövqe, bu yer Azərbaycan xalqının mifologiyasında da bariz şəkildə gözə çarpır. Azərbaycan mifologiyasında ana olmağa çalışan hamilə qadınlara yüksək ehtiram da diqqət çəkən məqamlardandır. Belə ki, hamilə qadın və ümumiyyətlə ana olmağa hazırlaşan hər bir qadın, gəlin, həddi-büluğa çatan, qızlar bulağından su içən hər bir qız Vətən üçün vətəndaş doğan potensial anadır. Dünyaya gələn hər bir kəs isə, sabahın rəncbəri, alimi, təbibi, ustadı, əsgəri və gələcək qurucuları olacaq atası, anasıdırlar. Məhz bu səbəbdən də, Azərbaycan folkloru çox vaxt bir ailənin qız övladının taleyini gəlin edəcəyi ocaqla, yurd-yuva ilə sıx surətdə, vəhdətdə təsvir edir:

Ay ana, qızın deyiləm,
Torbada duzun deyiləm,
Ay ana, balan deyiləm,
Gedirəm gələn deyiləm... (3.51)

Bu folklor nümunəsində ər evinə gedən qızın artıq özünü və dünyanı dərk etdiyi ilk vaxtlardan ailə quruculuğu məsələlərinə psixoloji və mənəvi cəhətdən kifayət qədər hazırlanması, yaxud hazır olması aydın sezilir. Belə ki, folklor nümunəsində anasına müraciət edən övladının: "Ay ana, qızın deyiləm, Torbada duzun deyiləm" – deyə, müraciət etməsi ərə gedən qızının bundan sonra gəlin getdiyi ocağın ab-havası, qayda-qanunları ilə yaşayacağına dəlalət edir. Gəlini olduğu evin şəraitinə tez uyğunlaşması, orada söz-söhbətin, narazılığın yaranmaması üçün təbii ki, gənc qızın hadisələri məhz bu baxımdan yanaşması ilk növbədə müsəlman-şərq ailəsinin mənəvi prinsip və tələblərindən irəli gəlirdi. Məhz belə bir təfəkkür tərzi gəlini getdiyi ocağın işığını yandıran, nəslini artıran bir üzvünə çevirir, onun özünə və valideynlərinə üz ağlığı gətirir, hörmət-izzət sahibi edirdi. Ailəni "Qız yükü, duz yükü" problemindən azad edirdi.

Deməli, qız gəlin getdiyi evin deyil, tərk etdiyi evin qonağıdır. Ona görə də anasına: "Ay ana, balan deyiləm, Gedirəm gələn deyiləm." – deyə söyləyir.

Gətirilən folklor nümunəsi ailəyə sadiq qalacaq, layiqli gəlinin seçilib-axtarılması məsələsinin də nə qədər vacib və zəruri olduğunu aydın şəkildə göstərməkdədir. Belə ki, gələcək ailənin dayaqlarının möhkəm olması üçün gəlinin əxlaqi-tərbiyəvi keyfiyyətlərinə məhz hansı ailədə, nə cür yiyələnməsi məsələləri də böyük əhəmiyyət kəsb edirdi. Ona görə də ana olacaq gəlinin seçilməsi zamanı onun zahiri gözəlliyi ilə bahəm əsli-nəcabəti, tərbiyəsi də ön plana çəkilirdi. Sözügedən məsələ ilə bağlı folklor nümunələrindən birində oxuyuruq:

Mən aşıq gözəl alma,
Tutubdu gözəl alma,
Əsil al, çirkin olsun,
Bədəsil gözəl alma. (3.50)

Azərbaycanlı ailəsi evinə, ocağına gəlin seçərkən onu ağıllı, xoşxasiyyətli olmasına xüsusi önəm vermişdir. Döyüşlərdən birində əsir düşmüş Trabzon imperatorunu Ağqoyunlu hökmdarı Uzun Həsənin yanına gətirdikdə ondan soruşmuşdu: “Hansı məbləğdə özümü satın ala bilərəm?” Uzun Həsən isə cavabında: “Arzu etdiyim adam əlimə düşmüşdür. Mən onu pulla qiymətləndirmirəm. Deyilənə görə, sizin Feodora adında ağıllı və xoşxasiyyət qızınız var. Onu mənə ərə verin” – demişdi. Trabzon imperatoru “biz xristian, siz isə bütpərəst olduğunuz halda mən bunu necə edə bilərəm?” – deyə etiraz etdikdə Uzun Həsən “bu məni narahat etmir” demişdi. Bundan sonra Feodora Ağqoyunlu sarayına göndərilmişdi. (6.26)

Bu fakt xalqımızın tarixən multikultural dəyərlərə hörmətlə göstərdiyini, irqindən, miliyyətindən və dinindən asılı olmayaraq bütün qadınlara ehtiramla yanaşdığını aşkar surətdə göstərir.

Ümumiyyətlə, Azərbaycan xalqının ailə quruculuğu ilə bağlı təfəkkür və düşüncə tərzində ailənin əxlaqi-mənəvi dəyərləri, prinsipləri həmişə böyük önəm kəsb edib. Analarımız qız-gəlinlərimiz ailənin saflıq və ucaqlıq rəmzi, toxunulmazlıq simvolu hesab edilmişlər. Azərbaycan folklorunda çox vaxt ana, yaxud gəlin sözləri az qala abır, həya və ismətin sinonimləri kimi işlədilir.

Folklor nümunələrindən birində deyilir: “Qoca bir kişinin gözəl, həyalı bir gəlini varmış. Bir neçə vaxt keçir, gəlin hamilə olur. Qayınata evdə olmayanda gəlin su gətirib uzun saçlarını yumağa başlayır. Saçını daradığı vaxt qayınatası evə gəlir. Gəlin darağı saçına taxır, əllərini göyə qaldırıb deyir:

– İlahi, məni ya daş, ya da quş elə.

Söz gəlinin ağzından çıxar-çıxmaz quş olub göyə uçur. O həmin quşdur ki, indi də darağını başında gəzdirir. Ona Şanapipik, ya da Daraqçin deyirlər. (4. 69)

Bu folklor nümunəsində ilk baxışda gənc bir gəlinin öz saçlarını yuması kimi adi, sadə bir məişət hadisəsi təsvir olunub. Lakin, qayınatasının evə gəlməsi, gəlinin saçlarını yumasını görməsi ilə hər şey kəskin bir tərzdə dəyişilir. Hadisənin məcrası başqa bir səmtə yönəlir. Çünki, başqa bir kişinin (o hətta qayınata belə olsa – A.M.) yanında gəlinin, qadının saçları açıq-saçıq olmamalıdır. Saçlarını açıb-tökmək, onu kiminsə yanında yumaq həya, ismət normaları ilə bir araya sığa bilməz. Belə etmək həyalı bir qadın üçün rəzalət və həqarətdir, utanc gətirən olaydır. Ona görə də, bətnində övladı olmasına baxmayaraq, gəlin uca Allahdan daş və yaxud quş olmasını diləyir. İnsanlar dünən də, bu gün də inanıblar ki, Allah tərəfindən ancaq saf qəlbli insanların diləkləri qəbul olunur. Ona görə də, bu ismətli, pak qəlbli gəlinin diləyi qəbul olunur və o quşa çevrilir.

Bəs nə üçün qayınatasında utanan gəlin daşa, yaxud da quşa çevrilmək istəyir? Həm daş, həm də quş qədim mifik təfəkkürümüzdə xüsusi yer tutan elementlər kimi çıxış etmişlər: “Azərbaycanlıların ən qədim inanclarında odla, ocaqla bərabər, torpağ, dağ və daşlar da ən müqəddəs təbiət elementlərindən biri olmuşdur.

Mifoloji mətnlərdə daşlar çox zaman hamilə qadınlara qahmar çıxır, onları çirkin niyyətli insanların məkrindən, düşmənlərin xətərindən, şər qüvvələrin zərərindən qoruyur. Məsələn, mifik mətnlərdən birində yolu daşlardan düşən, burada böyük qoyun sürüsü ilə üzləşərək, göy otlardan yeyib oynaşan əmlikləri görən hamilə qadının könlündən quzu əti yemək keçir. Üzünü çobanlara tutaraq istəyini onlara bildirdikdə, çobanlardan biri irəli yeriyib gəlinə acıqlı-acıqlı: "Ürəyin əmlik əti istəyir? Nə olar. Otur, bu saat qardaşın sənə əmlik əti verər" – deyə, söyləyir. İnsafsız çoban tez küçüklərdən birini xəlvətcə kəsərək bişirmək istədikdə bu haqsızlığa dözməyən yoldaşı ona yanaşır: "Sən sürüyə baş çək, əmliyi özüm bişirərəm" – deyə, söyləyir. İnsaflı çoban əmliyi bişirən kimi hörmətlə gəlinə verir. Gəlin əmlik ətini iştahla yeyərək alqış edir, sonra da yoluna düzəlir.

Çoban isə süfrəni yığışdırandan sonra, nə qədər gözləyirsə yoldaşı gəlib çıxmır: "Gedim, görüm nə olub" – deyə, yoldaşının dalınca yollandı. Gəlib gördü ki, yoldaşı çiynində çomaq daşa dönüb". (4.118)

Mifoloji mətndə ana olmaq istəyən hamilə qadına qarşı nalayiq hərəkəti edən çobanın hərəkətini nəsil artımını, doğumu himayə edən hami qüvvələr xəyanət kimi qiymətləndirərək onu cəzalandırırlar, daşa çevirirlər. Digər mifoloji mətndə isə, özünü düşmənlərin təqibindən qurtarmağa çalışan hamilə gəlinin göylərə yalvarışı nəticəsində özü daşa-qayaya dönür: "Bir düşmənlər qəfildən hücum çəkirlər. ...Yağılar qabaqlarına keçənləri qoca demir, uşaq demir, qadın demir, hamısını qılıncdan keçirirlər. Bu qaçhaqaçda bir hamilə gəlin də gizlənməyə yer axtarır. Üz tutur ayaqyalın, başı aşıq dağlara sarı. Düşmənlər sən demə gəlini görübmüşlər. Düşürlər arxasınca. Gəlin piyada, həm də hamilə, düşmənlər də atlı, yazıq hara qaça bilərdiki? (4.116)

Mifoloji mətndə deyilir ki, düşmənlər çathaçatda gəlin arını, ismətini qoruyub saxlamaq üçün göylərə yalvarış edir. Düşmən atlıları özlərini gəlinə yetirincə heyrətdən yerlərindəcə donub qalırlar. Belə ki, onların qarşısında hamilə gəlin əvəzinə hamilə qadına oxşayan uca qaya peyda olur: "Gəlin qayaya dönübmüş. Elə o vaxtdan da bu qayaya "Gəlin qayası" deyilir". (4.116)

Burada bir məqamı xüsusilə qeyd etmək istərdim. Belə ki, mifoloji mətndə yağı düşmənlərin at belində hamilə qadını təqib etmələri, əhaliyə divan tutmaları, qətliam törətmələri səhnələrinin təfərrüatı ilə təsvir edilməsi onu məzmun və mahiyyət baxımından tarixi mənbəyə də çox oxşadır.

Məsələn, XIII əsrin görkəmli tarixçisi İbn əl-Əsir "Əl-kamil fi-t-tarix" adlı əsərində monqolların 1221-ci ildə Beyləqan şəhərində törətdikləri qırğınlardan bəhs edərək yazırdı: "Qılıncı sıyırıb kiçik, böyük və arvad baxmadılar. Hamısını qırdılar. Hətta hamilə arvadların qarınlarını yarıb çağalarını çıxartdılar və öldürdülər. (5.114) İndi isə mifoloji mətnə nəzər salaq: "...Adamlar özlərini itirir, hara qaçdıqlarını bilmirlər. El-obanın çox igidləri qırıldı. Yağılar qabaqlarına keçənləri qoca demir, uşaq demir, qadın demir, hamısını qılıncdan keçirirlər. (4.116)

İbn əl-Əsir monqolların qadınların mənəviyyatına toxunmasından bəhs edərək: "...Özləri də (yəni, monqol əsgərləri – A.M.) arvadları zorlayıb sonra öldürdülər". – deyə, yazır. Yenə də, həmin mifoloji mətndə oxuyuruq: "...Gəlin piyada, həm də hamilə, düşmənlər də atlı, yazıq hara qaça bilərki. Ələ keçəndə də onun başına nə gətirəcəklər, kim bilir". (4.116)

Beləliklə, mifoloji mətnin tarixi mənbə ilə müqayisəsi əslində mifoloji və ümumiyyətlə, folklor nümunələrinin tariximizi öyrənmək üçün son dərəcə etibarlı, ilkin mənbə rolunu oynamasını bir daha aydın surətdə sübut edir. Digər tərəfdən həm sözügedən mifoloji, həm də tarixi mənbənin mətnində ölkəmizə hücum edən düşmənlərin zaman-zaman xalqımıza qarşı yeritdikləri soyqırımlarının böyük siyasi məqsədlər güddüyünü göstərir. Mühüm geostrateji mövqedə yerləşən, sərvətlərlə zəngin ölkəmizin əhalisini fiziki cəhətdən məhv etməklə torpaqlarımıza sahib olmaq istəyənlər təbii ki, burada öz maraqlarına uyğun demoqrafik siyasət

anlarında aktual olduğunu yeritməyi də başlıca vəzifələrindən biri sayıblar. Bu isə əhali artımı ilə bağlı demoqrafik məsələlərin tarixin bütün, heç zaman gündəmdən düşmədiyini aşkar surətdə göstərir. Bu mənada "Gəlin qayası" ilə bağlı mifoloji mətndə hamilə qadının elə özünə oxşayan uca qayaya çevrilməsi əslində həmin qadının bətnindəki övladla bərabər vətəni qoruyan sipərə, qalaya, qayaya, müdafiə istehkamına çevrilməsi anlamına da uyğun gəlir. Bu folklor nümunəsində: "Qadın ucalıq, ülvilik, bakirəlik, gözəllik tacıdır... Ana vətəndi, vətən də ana. Nə vətənsiz ana, nə anasız vətən..." (2.125) Yəni düşmən hamilə qadını fiziki cəhətdən hətta məhv edə bilsə belə, onun heysiyyatını, ailəyə, vətənə olan bağlılığını, namusunu nəinki alçalda bilmir, əksinə vətəninin möhtəşəm qayasına çevrilən ananın qüdrəti, yenilməzliyi önündə kiçilir, cılızlaşır, aciz vəziyyətə düşür.

Məhz bu səbəbdən də, Azərbaycan folklorunda azərbaycanlı anası, qadını çox zaman yenilməzliyi, bədii monumentallığı ilə diqqət çəkir. Bəlkə də xalqımızın əsrlər boyu yaratdığı, ərsəyə gətirdiyi folklor nümunələrində təsvir olunan analarımız Tomirislərin, Sara xatınların, Tutibikələrin, Həcərlərin obrazlarıdırlar. Yəni, bu folklor nümunəsində dünyaya insan gətirən, oğul-qız doğan ana nəhəng, yenilməz bir qalaya çevrilərək Vətən sərhədlərini yağılardan qoruyan sipər rolunda çıxış edir. Bəlkə də özünü yağı düşməndən qoruyan hamilə qadın atlı düşmənləri ardınca salaraq onları yaşadığı, sakini olduğu kənddən, yaxud şəhərdən məqsədyönlü şəkildə uzaq salır, beləcə bətnindəki körpəsinə, o cümlədən gələcək nəsillərə Vətəni qorumaq, onun uğrunda lazım gələrsə canından belə keçmək tərbiyəsini aşılayır.

Milli təfəkkürümüzün dərin qatlarında ana təkcə öz bətnindəki gələcək əsgəri, ərəni tərbiyə etmir, döyüş meydanında xəyanətə rast gələndə öz südü ilə onu yenidən həyata qaytara bilmək gücünə də malikdir. Əslində, "Kitabi Dədə Qorqud" dastanında sözügedən hadisə analarımızın dünyaya yenidən uşaq gətirərək onu öz südü ilə bəsləməsi, insan nəslini davam etdirə bilməsi anlamına da uyğun gəlir. Sözügedən dastanın "Dirsə xan oğlu Buğacın boyu"nda göstərilir ki, atası tərəfindən ağır yaralanıb çöldə qalmış Buğaca "boz atlı, yaşıl donlu Xızır İlyas" deyir: "Dağ çiçəyi ana südü ilə sənə məlhəmdir".

Müasir elm ana südünün yeni doğulan körpələr üçün misilsiz əhəmiyyətini danılmaz faktlarla sübut edir. Belə ki, südü bilavasitə anasının döşlərindən əmən uşaq onu insan bədəninin normal temperaturuna uyğun olaraq mənimsəyir. Bu cür süd müasir dövrdə olduğu kimi süni uşaq qidalarından tərkibinin təbii maddələr, mikroelementlər və vitaminlərlə zəngin olması ilə də seçilir. Burada süni əmzik və qablardan istifadə olunmadığına görə, körpənin xəstəlik törədən mikroblara yoluxması ehtimalı da aradan qalxır.

Təsadüfi deyildir ki, ana naxələf övladına "südüm burnundan gəlsin" – deyə, söyləyir. Və yaxud hər hansı bir insan həyatın çətinlikləri və uğursuzluqları ilə qarşılaşdıqda öz vəziyyətini "Anadan əmdiyim süd burnumdan gəldi" – deyə, söyləməklə bildirir. Bütün bu deyilənlər ananın övlad üzərində danılmaz haqqını göstərir.

Deməli, folklor nümunələrimizdə ana öz körpəsini rahat böyütmək üçün daima sabitlik və sülh diləyən müqəddəs varlıqdır. Milli folklor nümunələrində məhz bu baxımdan ana obrazı sülh və əmin-amanlıq rəmzi olan göyərçinlə eyniləşdirilir.

"Ümumdünya daşqını" və ya "Nuhun tufanı" ilə bağlı dini-mifoloji mətnlərdə göyərçin Yer kürəsində həyatın yenidən bərpası xəbərini Nuha çatdıran quş kimi təsvir olunur. Belə ki, "Nuhun tufanı" zamanı su hər yanı öz cənginə aldıqda bir müddət gəmidə üzən peyğəmbər quru yerin olub-olmaması barədə xəbər gətirməsi üçün qarğaya tapşırıq verir. Özünə quru yer tapan qarğa isə, bir daha geri qayıtmadığına görə, Nuh peyğəmbərin qarğışına tuş gələrək qara rəngə düşür. (8.6) Məhz bundan sonra Nuh peyğəmbər eyni tapşırıqla göyərçinə müraciət edir. Göyərçin isə, yer üzündə daşqının çəkilməsi, quru yerin olması ilə bağlı şad xəbərlə geri qayıdır. Yer kürəsində həyatın yenidən bərpası isə, əslində demoqrafik proseslərin ən başlıca elementlərindən biri olan məskunlaşma hadisəsi ilə eyniyyət təşkil edir. B.Abdullayev haqlı olaraq yazır:

"Maraqlı cəhət budur ki, qədim dövrlərdə daha çox ana olmuş qadınların ruhu göyərçin cildində sanılmışdır. (1.34)

Hamilə qadınların yemək-içməyinə, istirahətinə də xüsusi qayğı ilə yanaşılardı. Qədim inanclara görə əgər gəlin hamilə vaxtı dovşan əti yesəydi, uşağının gələcəkdə dovşandodaq, yaxud ağzı mırıq olacağını, böyürtkən və gicitkən yesə idi, doğacağı uşağın nadinc olacağını zənn edərdilər. Hamilə qadın ta altı aya kimi pis, eybəcər heyvanlara, kifir insanlara baxmaz və söyüş söyməzdi ki, uşağı eybəcər, bədheybət və ya söyüşcül olmasın.

"Azərbaycan mifoloji mətnləri" adlı kitabda deyilir: "Zahını tək qoymazlar, yoxsa hal anası gəlib onun ciyərini, ürəyini çıxarıb aparar". Yaxud: Hal nənəsi soğanla şişdən qorxur. Ona görə də zahının başı altında soğan, yanında şiş qoyardılar. Həm də zahının dörd tərəfindən cızıq çəkərdilər ki, hal nənəsi zahıya yaxın düşməsin". (7.166)

Məhz buna görə də qədim əcdadlarımız gələcək övladlarının qayğısına qalaraq hamilə qadınları bədxah ruhların mənfi təsirlərindən qorumaq üçün bir sıra ayinlər keçirər, tədbirlər tökərdilər. Misal üçün hamilə qadınların yorğandöşəklərini, baş örtüklərini qırmızı parçadan hazırlayar, yastıqlarının altına metal əşyalar-bıçaq,qayçı qoyar, başları üzərində narahat yuxular görərkən iblisi, Albastını qovmaq üçün metal əşyaları bir-birinə döyəcləyərək səslər çıxarar, hətta son dövrlərdə tüfənglərdən atəş belə açardılar. Bu tədbirləri həyata keçirən insanlar iblisi və ya Albastını qorxutduqlarını, hamilə qadından yaxud təzə doğulan körpədən uzaqlaşdırdıqlarını zənn edərdilər. (7.168)

Yuxarıda deyilənlər tarixən azərbaycanlıların anaya, ailəyə dərin ehtiram bəslədiyini, son dərəcə ailəcanlı olduqlarını aşkar şəkildə ən etibarlı mənbələr olan milli folklor nümunələri əsasında bir daha sübut edir.

**Ədəbiyyat:**

1. Abdullayev B. Haqqın səsi. B.: Azərnəşr, 1989, 144 s/
2. Azərbaycan etnoqrafiyası. Üç cilddə. C.3. B.:Şərq-Qərb, 2007, 568 s.
3. Azərbaycan folkloru antologiyası B.: Azərb.SSR EA nəşr-tı, 1968, 288 s.
4. Azərbaycan mifoloji mətnləri. B.: Elm, 1988. – 196 s.
5. Azərbaycan tarixi üzrə qaynaqlar. B.: Azərb. Un-ti nəş-tı, 1989, 328 s.
6. Mahmudov Y. Öyrənilməmiş səhifələr. B.: Gənclik, 1972, 97 s.
7. Məmmədov A. Tarixi demoqrafiya. B., ADMİU, 2019, 232 s.
8. Сумцов Н. Ворон в народной словености. М.: Типогр. Е.Г.Потапова, 1890, 31 с.

***Мамедов Айдын***

**ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ, СВЯЗАННЫЕ С МАТЕРЬЮ В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ**

**Резюме**

Мама - это первое слово каждого человека. Этот человек – неотъемлемая часть каждого из нас. Ведь именно благодаря матери мы появились на свет.

Вот почему, образу матери придается огромное значение в фольклоре каждого, в том числе азербайджанского народа. В фольклоре азербайджанского народа исторически мать исполняет роль хранительницы домашнего очага. Она создаёт дома уют, тепло, заботится о детях. Она наш близнец по духу. Всегда поймёт, никогда не осудит, не предаст. Поэтому в мифологических текстах о матери рассказывается бесконечно. Их миллионы, и каждая из них несёт в себе подвиг – материнскую любовь.

В мифологических текстах азербайджанского народа женщина становится мамой, когда ребенок растет и развивается еще только внутри неё. Уже на этом этапе она проявляет всю свою любовь и заботу к нему, испытывает бесконечную радость и долгожданность встречи со своим малышом. Таким образом, образ матери в мифологических текстах азербайджанского народа является, главным образом, продолжательницей всего человеческого рода и демографических процессов.
**Ключевые слова:** *мать, примеры фольклора, историко-демографические проблемы, рост населения, народонаселение*

***Mammadov Aydın***

## HISTORICO-DEMOGRAPHIC ISSUES ASSOCIATED WITH THE MOTHER IN AZERBAIJANI FOLKLORE

**Summary**

Mother is the first word of every person. This person is an integral part of each of us. Indeed, it was thanks to our mother that we were born.

That is why, the image of the mother is of great importance in the folklore of everyone, including the people of Azerbaijan. In the folklore of the Azerbaijani people, historically, the mother acts as the guardian of the hearth. She creates comfort at home, warmth, takes care of children. She is our twin in spirit. He will always understand, advice, never judge, betray. That is why in mythological texts mothers are told endlessly. There are millions of them, and each of them carries a feat - maternal love.

In the mythological texts of the Azerbaijani people, a woman becomes a mother when the child is still growing and developing inside her. Already at this stage, she shows all her love and care, all the endless joy and long-awaited meeting with her baby. Thus, the image of the mother in the mythological texts of the Azerbaijani people is mainly the continuer of the entire human race and demographic processes.
**Key words:** *mother, examples of folklore, historico-demographic issues, population growth, population settlement*

Redaksiyaya daxil olma tarixi: 17.06.2020
Çapa qəbul olunma tarixi: 26.06.2020

*Rəyçilər: t.e.d. A.İsgəndərov, t.e.d. T.Həsənzadə*

*BDU-nun "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının 12 fevral 2020-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür. (Pr.№6)*